Aqrar Xidmətlər Agentliyi

# Çılpaq ilbizlər

## (Limax maximus) (Linnaeus)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Zərərverici növ tərkibindən asılı olaraq qış dövrünü sürfə, yetkin ilbiz və ya yumurta mərhələlərində keçirir. İlbizlərdə yumurta qoymağa iyulun axırlarında başlayır. Bir dişi ilbiz 400-ə qədər yumurta qoya bilir. Yumurtalarını əsasən bitki qalıqlarının, kəsəklərin və digər tullantıların altında topa halında qoyurlar. Bir topada 9-dan 50-yə qədər yumurta olur.Yumurtalardan sürfələrin çıxması 12-20 gün sürür. Onlar növ tərkibindən asılı olaraq ildə 1-2 nəsil verirlər və 1 ildən 3 ilə qədər yaşayırlar. Yay və payız aylarında yağıntıların bol olması və rütubətin artması zərərvericinin çoxalmasına səbəb olur. İlbizlər kənd təsərrüfatı bitkilərindən taxıl, tərəvəz-bostan, paxlalı, qismən texniki və meyvə bitkilərinə zərər verir. İlbislər bitki yarpaqlarının yumşaq hissəsini gəmirib yeyirlər.

## Mübarizə tədbirləri

**Aqrotexniki mübarizə:**

Sahələrdə 35-40 sm olmaqla dərin şum aparılmalı;
Əkin sahələri alaq otlarından təmiz saxlanmalı; Cərgə araları vaxtında kultivasiya edilməli;
Tarlalarda vaxtında dondurma şumu aparılmalıdı;
Sahələrdə müxtəlif tələlər qurmaqla mübarizə

**Kimyəvi mübarizə:**

Çılpaq ilbizlərə qarşı Metaldehid tərkibli preparatlardan istifadə etməklə kimyəvi mübarizə tədbirləri həyata keçirilir. Daxili bağırsaq təsirli metaldehid tərkibli preparatlardan istifadə edərək aldadıcı yem hazırlanır, 1 hektara 40-50 kq məsarif norması ilə səpilir.

